"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 20 avqust 2014-cü il | № 64 (1881) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik

***Son vaxtlar ölkəmizin ictimaiyyəti düşmənlə təmas xəttində Azərbaycan Ordusunun qazandığı uğurların xoş ovqatını yaşayır. İşğalçı Ermənistanın kəşfiyyat-diversiya hücumlarının qarşısının alınmasında əsgər və zabitlərimiz əsl hünər və rəşadət nümunələri göstərərək bir daha Vətən uğrunda mübarizə əzmində olduqlarını sübuta yetirdilər.***



Bu yaxınlarda Ağdamda ön cəbhəyə baş çəkən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev son döyüş uğurlarının qazanılmasında iştirak etmiş hərbçilərimizlə şəxsən görüşdü və fədakar xidmətlərinə görə onları mükafatlandırdı. Ölkəmizin başçısı qeyd etdi ki, ermənilər həmişə olduğu kimi öz itkilərini gizlədirlər, həqiqət budur ki, həmin hadisələrdə yenə də Azərbaycan Ordusu üstün olub və biz qələbə qazanmışıq.

Əlbəttə, bu fikir ilk növbədə Ali Baş Komandanın öz ordusuna, öz əsgərinə inamının bariz nümunəsidir. Hazırda Azərbaycan Ordusunda şəxsi heyətin vətənpərvərlik ruhu yüksəkdir. Hər bir əsgərimiz ordu rəhbərliyinin diqqət və qayğısından ruhlanaraq hərbi tapşırıqların öhdəsindən bacarıqla gəlmək üçün var qüvvəsini əsirgəmir. Doğrudan da əsgərimiz hiss edəndə ki, onun bütün qayğıları diqqət mərkəzindədir, onda döyüşçüdə ruh yüksəkliyi yaranır və o, göstərilən diqqətə cavab olaraq daha ürəklə xidmət etməyə cəhd göstərir.

Dövlət başçısı hərbçilər qarşısında çıxışı zamanı "Ermənistan ordusunun aldığı zərbə onlara bir siqnal olmalıdır ki, münaqişənin həlli uzana bilməz" fikrini qətiyyətlə bildirdi. Göründüyü kimi, dövlətimizin münaqişənin həlli istiqamətində mövqeyi birmənalıdır: Azərbaycanın ərazi bütövlüyü təmin edilməyənə qədər heç bir kompromisdən söhbət gedə bilməz.

Ön cəbhədə düşmənin təxribat-diversiya cəhdlərinin qarşısının alınmasında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlıq nümunələri cəmiyyətimizdə də böyük ruh yüksəkliyi doğurub. Müxtəlif bölgələrdən, xarici ölkələrdə məskunlaşan soydaşlarımızdan Müdafiə Nazirliyinin ünvanına göndərilən çoxsaylı müraciətlərdə də belə bir fikir ifadə olunur ki, hər kəs əsgərlərimizə dəstəkdir və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizəyə hazırdır. Dövlətimizin rəhbərliyi də dəfələrlə xalqımızın döyüş əzmini ifadə edərək bildirib ki, artıq Azərbaycan-Ermənistan arasında münaqişənin həlli uzandığı üçün xalqın səbri tükənir.

Ali Baş Komandan İlham Əliyevin sözlərinə görə, bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır: "Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər".

Ağdam rayonunda ictimaiyyət qarşısında çıxışında da Prezident qeyd etdi ki, məsələnin həlli 20 ildən artıqdır uzanır. Beynəlxalq ictimaiyyət bu məsələ ilə məşğul olmur. Vasitəçilər sadəcə olaraq nə hərb, nə sülh vəziyyətini saxlamaq istəyirlər.

İlham Əliyev qeyd edib ki, bizə deyirlər ki, müharibə etməyin, sülh yolu ilə həll edin: "Çağırışlar edilir. Böyük dövlətlərin başçıları açıq bəyanatlar verirlər ki, müharibə olmasın. Yaxşı, biz də istəmirik müharibə olsun. Amma gəlin, bunu həll edin. Bu sizin imkanınızdadır. Ermənistan asılı bir dövlətdir. Ermənistan öz hesabına yaşaya bilməz. Bu asılı olan dövlətə deyilə bilər ki, çəkil bu torpaqlardan. Bu nahaq işdir. Sən beynəlxalq hüququ, ədaləti pozursan. Amma deyilmir. Deyilir ki, gedin razılaşın. Amma necə razılaşaq ki, onlar torpaqlardan çıxmaq istəmirlər".

Beynəlxalq səviyyəli tədbirlərdə və inkişaf etmiş ölkələrin rəhbərləri ilə keçirilən görüşlərdə Azərbaycan dövlətinin münaqişə ilə bağlı ədalətli mövqeyi daim diqqətə çatdırılıb. Qeyd edilib ki, münaqişənin həlli istiqamətində Azərbaycan sülh variantına əsas verir və heç bir tərəfdən qan tökülməsinə tərəfdar deyil. Amma nədənsə nüfuzlu dairələrdə bu mövqeyimizi Ermənistan rəhbərliyinin diqqətinə çatdırmırlar. Dövlət başçısının sözlərinə görə, son hadisə Qarabağ probleminin dondurulmuş münaqişə olmadığını göstərdi: "Ermənistanın havadarları, onlara ən çox dəstək verən dairələr, xarici ölkələrin dairələri, o cümlədən erməni diasporu başa düşməlidirlər ki, bu gün Ermənistan üçün çox böyük problemlər yarana bilər. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Bir məsələni də qeyd etmək vacibdir ki, Naxçıvanda 3 ölkənin-Azərbaycan, Türkiyə və Gürcüstanın Müdafiə nazirlərinin birgə keçirilən görüşləri ölkəmizin bölgədə artan nüfuzuna daha bir əyani sübutdur. Bəzi erməni saytlarının məlumatına görə, Naxçıvandakı bu görüşlər işğalçı dövlətin rəsmi dairələrində qısqanclıqla qarşılanıb. Artıq Ermənistan tərəfi birmənalı olaraq başa düşməlidir ki, onun işğalçılıq siyasəti ölkəni bütün geosiyasi layihələrdən kənarda qoyur və bu, nəticə etibarilə onların iflası ilə nəticələnəcək. Bu yerdə dövlət başçımızın sözlərinə istinadla qeyd etmək lazımdır ki, Ermənistan tezliklə özünün işğalçılıq siyasətinə son qoymalıdır.

**"Azərbaycan Ordusu"**

# İtaliya XİN Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artması ilə bağlı bəyanat yayıb

***İtaliya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ regionunda, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artması ilə əlaqədar bəyanat yayıb.***

Bəyanatda deyilir: "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin cari il iyulun 14-də Romaya səfəri çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi, o cümlədən əməkdaşlıq etmək üçün yeni sahələrin müəyyənləşdirilməsi və bu işə vətəndaş cəmiyyətlərinin də cəlb olunması barədə birgə bəyannamə imzalanıb. İtaliya ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqları və səyləri dəstəkləyir. İtaliya da Avropa İttifaqı (Aİ) ilə birgə münaqişənin sülh yolu ilə, BMT Xartiyası və Helsinki Yekun Aktının baza prinsipləri əsasında, eyni zamanda ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həyata keçirilən danışıqlar prosesi çərçivəsində həll olunmasının tərəfdarıdır.

İtaliya da Aİ-dəki tərəfdaşları kimi, son günlər Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində artan gərginlikdən narahatlığını bildirir, tərəfləri güc tətbiq etməməyə çağırır, Ermənistan və Azərbaycan prezidentlərinin cari il avqustun 10-da Soçidəki görüşlərindən sonra məsələnin siyasi danışıqlarla həll ediləcəyinə ümid edir".

**AzərTAc**

# Fransalı deputat Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Fransanın xarici işlər nazirinə sorğu göndərib

***Fransa Milli Assambleyasının üzvü Jan-Fransua Mansel avqustun 10-da Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyanın Soçidə baş tutan görüşündən sonra Fransanın xarici işlər nazirinə sorğu ilə müraciət edib.***

Jan-Fransua Mansel Fransanın xarici işlər naziri Loren Fobiusa bir daha xatırladıb ki, Fransa Rusiya və Amerika Birləşmiş Ştatları ilə birgə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir.

AzərTAc xəbər verir ki, bu barədə Avropa-Azərbaycan Cəmiyyətinə məlumat verən Jan-Fransua Mansel vurğulayıb: "Mən ona sual verdim ki, Fransa hökumətinin bu məsələ ilə bağlı fikri nədir və münaqişənin Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beynəlxalq qaydalara və ədalətə əsaslanaraq sülh və danışıqlar yolu ilə həllinin sürətləndirilməsi üçün hansı addımların atılması planlaşdırılır?".

Jan-Fransua Mansel Fransa Milli Assambleyasında Fransa-Azərbaycan dostluq qrupunun üzvüdür. O, həmçinin yeni yaradılmış Azərbaycanın Dostları Cəmiyyətinin prezidentidir.

**AzərTAc**

## Mövlud Çavuşoğlu:

# Azərbaycan özünə məxsus olan torpaqları geri qaytarmaq hüququna malikdir

***İtaliyanın "Notizie Geopolitiche" xəbər portalında Türkiyənin Avropa İttifaqı üzrə naziri Mövlud Çavuşoğlunun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərinin yer aldığı yazı yerləşdirilib.***

Yazıda son günlər Dağlıq Qarabağ regionunda, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artmasına münasibət bildirən Mövlud Çavuşoğlu deyib: "Təbii ki, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq, lakin Azərbaycan özünə məxsus olan torpaqları geri qaytarmaq hüququna malikdir. Tərəflər arasında danışıqların aparılması münaqişənin həllinin əsas yoludur. Lakin Azərbaycanın hərbi yolla da Dağlıq Qarabağ bölgəsini işğaldan azad etmək hüququ var".

Məqalədə türkiyəli nazir münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunu problemi tezliklə nizamlamağa və qarşıdurmalara son qoymağa çağırıb. Oxucuların diqqətinə çatdırılır ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək hüququnu müdafiə edən Türkiyə hər zaman bu məsələdə dəstəyini göstərib.

Münaqişə ilə bağlı məlumat verən müəllif qeyd edir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon Ermənistan silahlı qüvvələri tərəfindən 20 ildən artıqdır işğal olunub. BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan 4 qətnamə qəbul etməsinə baxmayaraq, məsələ hələ də həllini tapmayıb. Münaqişə nəticəsində Azərbaycanın 20 faiz torpaqları işğal olunub və bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin düşüb.

**AzərTAc**

# Ermənistanın siyasi səhnəsində təsadüfi adam olan Serj Sarkisyan terrorçu kimi düşünməkdə davam edir

"Ermənistan prezidenti Serj Sarkisyanın Soçidə dövlət başçılarının qapalı görüşünün yekunları barədə bəyanatları onu göstərir ki, Ermənistanın indiki rəhbəri ağır geosiyasi vəziyyətdə olan ölkə barədə deyil, ilk növbədə, öz hakimiyyətini qoruyub saxlamaq və möhkəmlətmək, öz klanının mənafeləri barədə düşünür. Sarkisyanın riyakarlığının həddi-hüdudu olmaması tamamilə aşkardır. Yaxşı deyiblər ki, siyasətdə vicdanlılıq gücə, riyakarlıq isə zəifliyə dəlalət edir. Sarkisyan özünü konstruktiv və tolerant düşüncə sahibi kimi göstərməyə çalışır, lakin praktiki olaraq buna nail ola bilmir".

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut AzərTAc-ın müxbiri ilə söhbətində Sarkisyanın Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Soçidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündən sonra verdiyi bəyanatları belə şərh edib.

Xatırladaq ki, Serj Sarkisyan Ermənistana qayıdandan sonra həmin danışıqların bəzi məqamlarını təhrif edilmiş formada səsləndirib. Arye Qutun fikrincə, Ermənistan geosiyasi fiaskoya məruz qalıb.

İsrailli analitik deyib: "Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyinə görə praktiki olaraq Xəzər dənizinin qaz və neft ehtiyatları ilə bağlı əsas geosiyasi və geoiqtisadi layihələrdən kənarda qalıb.

Azərbaycan ərazilərinin işğal edilməsi və Ermənistanın Türkiyəyə qarşı tarixi iddiaları bu ölkəni tamamilə regionda təcrid olunma vəziyyətinə gətirib çıxarıb.

Aydındır ki, Azərbaycan ilə münaqişənin nizamlanmaması ilk növbədə Ermənistandakı Qarabağ klanının xeyrinədir. Mövcud status-kvo-nun saxlanması bu klanın həyati maraqlarına uyğundur. Serj Sarkisyan başda olmaqla Ermənistanın siyasi elitası bu ölkə ilə Azərbaycan arasında münaqişədən öz mənafeyi üçün istifadə edir. Hakimiyyət orqanları sosial etirazların təzyiqi ilə üzləşdikdə Azərbaycan tərəfindən hərbi əməliyyatlara başlanması üçün əlverişli şərait yaranmasında Ermənistan ictimaiyyətini və müxalifət liderlərini təqsirləndirirlər. Ermənistanın pozucu və təcavüzkar mövqeyi Azərbaycanı münaqişənin nizamlanması üçün başqa vasitələr axtarmağa məcbur edir". Arye Qut qeyd edib ki, Ermənistan prezidentinin davakar çıxışları Azərbaycana əsla təsir göstərmir. Arye Qut vurğulayıb: "Serj Sarkisyan hələ də elə fikirləşir ki, bugünkü Azərbaycan XX əsrin 90-cı illərinin əvvəlindəki Azərbaycan kimidir. Əslində isə bu gün Azərbaycan tamamilə başqa, regionda güclü geosiyasi və hərbi potensiala malik olan ölkədir. Ermənistandan fərqli olaraq Azərbaycana regionda heç kəs öz fikrini diktə edə bilməz".

Ermənistanın siyasi səhnəsində təsadüfi adam olan Serj Sarkisyan isə dövləti təfəkkürü olmayan terrorçu kimi düşünməkdə davam edir. Ermənistan prezidenti Soçidə üçtərəfli görüşdən Yerevana çatar-çatmaz bəyan edib ki, Azərbaycanın istənilən şəhərini Ağdama çevirməyə hazırdır. İsrail analitiki qeyd edir: "Azərbaycanın Xocalı şəhərində Serj Sarkisyan tərəfindən bilavasitə təşkil edilmiş kütləvi qırğın və qanlı cinayətlər heç kəsin yadından çıxmayıb. Bu əməllər nəticəsində bir gecədə 613 dinc sakin məhv edilib. Ermənistan prezidenti öz əməllərinə və hərəkətlərinə görə xəcalət çəkmək əvəzinə bununla fəxr edir. Bəli, təəssüf ki, işğalçı Ermənistan qoşunları Ağdam şəhərini yerlə yeksan ediblər, faktiki olaraq şəhərdəki bütün tikililər dağıdılıb, bütün evlər qarət edilib, sonra isə yandırılıb. Mən başa düşə bilmirəm, Ermənistan prezidenti bu terror və işğal faktları ilə necə fəxr edir. Təəssüf ki, ikinci dəfə Ermənistan prezidenti seçilməsinə baxmayaraq Sarkisyan yenə terrorçu kimi düşünməkdə davam edir".

**AzərTAc-ın materialları əsasında**

# Azərbaycan Respublikasının Müdafiə naziri Gürcüstanın Müdafiə nazirini qəbul edib



***Avqustun 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizə rəsmi səfərə gələn Gürcüstanın Müdafiə naziri cənab İrakli Alasaniyanı qəbul edib.***

İ.Alasaniyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Qərargahı qarşısında rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayrağının dalğalandığı meydanda Gürcüstan Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları Azərbaycanın qədim diyarı Naxçıvanda salamlayaraq, Gürcüstanla aparılan danışıqların və keçirilən görüşlərin strateji əhəmiyyət daşıdığını vurğulayıb, hərbi əməkdaşlığın yüksək templə inkişaf etdiyini və bu əlaqələrin daimi olacağını qeyd edib.

Öz növbəsində qonaq Naxçıvan şəhərinə ilk dəfə səfər etdiyindən məmnun olduğunu bildirib və yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə Respublikasının Milli Müdafiə nazirini qəbul edib



***Avqustun 18-də Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaz Azərbaycana rəsmi səfərə gəlib.***

Qonağı Naxçıvan beynəlxalq hava limanında Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov qarşılayıb.

Sonra İ.Yılmazın rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun Qərargahında rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayrağının dalğalandığı meydanda Türkiyə Milli Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini və ölkələrimiz üçün faydalı olduğunu qeyd edib.

Qonaq Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin rolu və əhəmiyyətindən danışıb.

Daha sonra regional və qarşılıqlı əməkdaşlıqla bağlı digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab İsmayıl Alper Coşkun iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə və Gürcüstan respublikalarının Müdafiə nazirləri ilə görüşmüşdür

***Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri İsmət Yılmaz və Gürcüstan Respublikasının Müdafiə naziri İrakli Alasaniya Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişlər.***

Avqustun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri İsmət Yılmaz və Gürcüstan Respublikasının Müdafiə naziri İrakli Alasaniya ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri onları Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş, son illər muxtar respublikanın bir sıra beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etdiyini və bunun uğurlu nəticələri olduğunu diqqətə çatdırmışdır. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə və Gürcüstan arasında təhsil, səhiyyə, iqtisadiyyat və nəqliyyat sahələrində uğurlu əməkdaşlığın mövcud olduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, strateji maraqlara uyğun olaraq hər üç ölkənin həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əsasda əlaqələrinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Naxçıvanın blokadada yaşadığını və düşmən dövlətlə sərhəddə yerləşdiyini bildirən Ali Məclisin Sədri bütün bunlara baxmayaraq muxtar respublikada sosial-iqtisadi inkişafın davamlı xarakter aldığını qeyd etmişdir. Bildirilmişdir ki, bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür, Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və birləşmələrinin döyüş qabiliyyəti gücləndirilir, Heydər Əliyev adına Hərbi Liseydə ordumuz üçün ixtisaslı kadrlar hazırlanır.

Ali Məclisin Sədri Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin Naxçıvan görüşünün faydalı olacağına əminliyini bildirmiş, təşkilatçılara təşəkkür etmişdir.



Görüşdə iştirak edən Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hər üç ölkə arasında siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdırmış, Naxçıvan görüşünün hərbi sahədə əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə etmişdir.

Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri İsmət Yılmaz qədim tarixə malik Naxçıvan şəhərində olmağından məmnunluğunu ifadə etmiş, göstərilən qonaqpərvərliyə görə təşəkkür etmişdir. İsmət Yılmaz Türkiyə və Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin qurulmasında beynəlxalq Moskva və Qars müqavilələrinin əhəmiyyətini vurğulamış, son illər həyata keçirilən qarşılıqlı rəsmi səfərlərin siyasi, iqtisadi, təhsil və digər sahələrdə münasibətlərin inkişafına töhfə verdiyini bildirmişdir. İsmət Yılmaz ölkəsinin dost və qardaş Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini diqqətə çatdırmış, hərbi əməkdaşlıq sahəsində qarşılıqlı səylərin göstərildiyini qeyd etmişdir.

Gürcüstan Respublikasının Müdafiə naziri İrakli Alasaniya demişdir ki, müdafiə nazirlərinin Naxçıvanda keçirilən görüşü hər üç ölkə arasındakı əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd olunmuşdur ki, bu gün Gürcüstan, Azərbaycan və Türkiyə arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu münasibətlərin davam etdirilməsində və regionda sülhə nail olunmasında hərbi sahədə əməkdaşlığın mühüm rolu vardır.

Söhbət zamanı hər üç ölkə arasındakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşün sonunda Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri İsmət Yılmaz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova xatirə hədiyyəsi təqdim etmişdir.

Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşqun, Azərbaycandakı hərbi attaşesi Hasan Nevzat Taşdeler, Naxçıvandakı baş konsulu Əli Rza Akıncı, Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinin müavini İrakli Svanidze, Azərbaycandakı hərbi attaşesi Şalva Turaşvili görüşdə iştirak etmişlər.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin şərəfinə rəsmi ziyafət verilmişdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin Naxçıvan şəhərinə səfəri davam edir



***Avqustun 18-də Azərbaycan, Gürcüstan və Türkiyənin Müdafiə nazirləri general-polkovnik Zakir Həsənov, cənab İrakli Alasaniya və cənab İsmət Yılmaz Naxçıvan şəhərinin mərkəzində ucaldılmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev muzeyini ziyarət ediblər.***

Qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək gül dəstələri qoyublar.

Sonra qonaqlar "Əshabi-Kəhf" ziyarətgahında olublar.

Müdafiə nazirlərinin Naxçıvan şəhərinə səfəri avqustun 19-dək davam edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib





***Avqustun 19-da Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordusunun Qərargahında Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gürcüstanın Müdafiə naziri cənab İrakli Alasaniya və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaz arasında üçtərəfli formatda görüş keçirilib.***

Görüşdə nazirlər regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıb və hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

Eyni zamanda qərar qəbul edilmişdir ki, Müdafiə nazirləri bu formatda hər altı aydan bir görüşsünlər.

Danışıqlardan sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib və Müdafiə nazirləri üçtərəfli görüşün yekunları barədə medianı məlumatlandırıblar.

## Müdafiə naziri general-polkovnik Zakir Həsənovun kütləvi informasiya vasitələri nümayəndələri qarşısında çıxışı

- Hörmətli mətbuat nümayəndələri!

Bu gün biz, Azərbaycan, Gürcüstan və Türkiyənin Müdafiə nazirləri üçtərəfli formatda ilk görüşümüzü keçirdik. Görüş zamanı regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi apardıq, bölgədə sabitliyin təmin edilməsi yollarını birgə araşdırdıq.

3 dost - qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin üçtərəfli formatda inkişaf etdirilməsinin səmərəliliyi vurğulandı, bu formatda münasibətlərimizin gələcək perspektivlərini müzakirə etdik, qarşılıqlı maraq doğuran istiqamətlər barədə geniş fikir mübadiləsi apardıq.

Bu formatda danışıqların genişləndirilməsi və Müdafiə nazirlərinin üçtərəfli görüşlərinin hər il növbə ilə Azərbaycanda, Gürcüstanda və Türkiyədə keçirilməsi, əməkdaşlığımızın gedişatının müzakirə edilməsi və gələcək perspektivlərin müəyyənləşdirilməsi barədə qərar qəbul etdik.

3 ölkənin Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılması və qarşılıqlı əməliyyat uyarlığının əldə edilməsi məqsədilə üçtərəfli birgə təlimlərin keçirilməsi, birgə seminar və konfransların təşkil edilməsi, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın üçtərəfli formatda təşkil edilməsi, neft və qaz boru kəmərlərinin mühafizəsi üzrə üçtərəfli təlimlərin keçirilməsi, əməkdaşlıq sahələrinin genişləndirilməsi üçün üç ölkə mütəxəssislərinin ekspert görüşlərinin təşkil edilməsi məqsədəuyğun hesab olunmuşdur.

Mən Türkiyə Respublikasının Milli Müdafiə naziri hörmətli İsmet Yılmaz və Gürcüstanın Müdafiə naziri hörmətli İrakli Alasaniya cənablarına dəvətimizi qəbul edib Naxçıvana gəldiklərinə və bu iki gün ərzində üçtərəfli görüşdə iştirak etdiklərinə görə təşəkkürümü bildirirəm.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirləri Naxçıvandakı "N" hərbi hissəsində olublar





Avqustun 19-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gürcüstanın Müdafiə naziri cənab İrakli Alasaniya və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaz Naxçıvan qalasını, Nuh Peyğəmbərin məzarını, duz mağarasını, Möminə Xatun türbəsini, Xan Sarayını, Xalça Muzeyini ziyarət ediblər.

Sonra hər üç ölkənin Müdafiə naziri Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsinə gedərək şəxsi heyət üçün yaradılmış şəraitlə tanış olublar.

Bununla da Türkiyə Respublikası və Gürcüstanın Müdafiə nazirlərinin ölkəmizə rəsmi səfəri başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şərti düşmən məhv edildi

## Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Hərbi Hava Qüvvələrinin təlimləri davam etdirilib



***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, avqust ayının 13-də başlanmış təlimlərin keçirilməsində əsas məqsəd, şəxsi heyət tərəfindən döyüş tapşırığının düzgün yerinə yetirilməsinin müəyyən edilməsi, hərəkətdə olan qoşun qruplaşmalarının, mühüm hərbi və mülki obyektlərin hava zərbələrindən mühafizəsinin təşkil olunmasıdır.***

Təlimlər zamanı qoşunların yüksək döyüş hazırlığı dərəcəsinə gətirilməsi, mühüm dövlət və hərbi obyektlərin, quru qoşunları qruplaşmalarının hücumda və müdafiədə mühafizəsi üzrə hava hücumundan müdafiə qoşunlarının fəaliyyəti və digər məsələlər məşq etdirilib.

Avqustun 14-də təlimlər zamanı "Buk-MB" zenit-raket komplekslərindən iştifadə olunub. Bu kompleks orta mənzilli zenit-raket sistemlərinə aiddir, hərəkətli qoşun qruplaşmalarını, mühüm hərbi və mülki obyektləri, yaxud belə obyektlər qrupunu hava zərbələrindən müdafiə etmək üçün təyin edilmişdir. Həmin qurğu düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində, hündürlük və sürətin geniş diapazonlarında pilotlu və pilotsuz hava hücumu vasitələrini, o cümlədən, ballistik raketləri məhv etmək imkanına malikdir.

Təlimlər zamanı ehtimal olunan düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində pilotsuz və pilotlu hava hücumu vasitələrini, digər hava hədəflərini, o cümlədən, ballistik və qanadlı raketləri aşkarlamaq, tanımaq, avtomatik izləməyə götürmək və atəşlə məhv etmək kimi praktiki məşqlər həyata keçirilib.

Müdafiə naziri tərəfindən qoyulan tapşırıqlar hava hücumundan müdafiə qoşunları tərəfindən uğurla yerinə yetirilib və döyüş atışlarının nəticəsi yüksək qiymətləndirilib.

Son təlim günündə, təlimin ssenarisinə əsasən, hava məkanını pozan şərti düşmən aşkarlanaraq, onun haqqında informasiya döyüşü idarəetmə məntəqəsinə çatdırılıb. Hava hədəfləri izlənməyə götürülüb, S-300 PMU və S-125 2TM tipli zenit raket komplekslərinin şərti atəş zərbələri ilə şərti düşmən dərhal məhv edilib.

Bir faktı qeyd etməyə dəyər ki, universal zenit-raket kompleksi olan S-300 PMU-2 "Favorit" dövlətin ən vacib obyektlərinin müdafiəsi üçün nəzərdə tutulub. Bu etibarlı sistem, həmçinin Silahlı Qüvvələrin müasir döyüş təyyarələrindən, hətta strateji qanadlı, taktiki, operativ taktiki ballistik raketlərdən və digər hava hücumu vasitələrindən mühafizəsini təmin etməyə qadirdir.



Təlimlərə cəlb olunan döyüş aviasiyası, Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı şərti düşmənin yerüstü hədəflərini və döyüş texnikasını, o cümlədən, onun mühəndis-istehkam qurğularını idarəolunmayan raketlər və aviasiya məhvetmə vasitələrilə tam dağıdıb.

Təlim uçuşlarından sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən ən müasir, NATO standartlarına uyğun qoruyucu dəbilqələr və kombinezonlar döyüş aviasiyasının pilotlarına təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin adından hər bir pilota əşya normasında nəzərdə tutulmayan, praktiki baxımdan daha səmərəli və rahat dəri gödəkçələr hədiyyə edilib.

**"Azərbaycan Ordusu"**

# "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda

## Silahlı Qüvvələrdə keçirilən müsabiqədə "N" hərbi hissəsinin şəxsi heyəti fəal iştirak etdi



***Məlum olduğu kimi, Müdafiə nazirinin müvafiq əmrinə uyğun olaraq Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqə keçirilir. Qəzetimizin ötən saylarında bu barədə ətraflı məlumat vermişdik. Ordumuzun ayrı-ayrı qoşun növlərində və birliklərində artıq müsabiqəyə qatılmış qruplar içərisindən ən yaxşıları seçilib. Onlardan üç ən yaxşı qrup final mübarizəsində iştirak etmək imkanı qazanıb. İlk üçlüyü tutan qruplar müsabiqənin qalibləri elan olunacaqlar və onlar mükafatlandırılacaqlar.***

"Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda yarışmada biz də iştirak etmişdik. Müsabiqənin düzgün və ədalətli keçirilməsinə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabitləri İslam Gəncəliyev və Arif Kərimov nəzarət edirdilər.

Silahlı Qüvvələrdə ictimai-siyasi hazırlıq dərsləri il ərzində zabit, gizir, əsgər və çavuş heyətlərilə aparılır. Məqsəd hərbi qulluqçularda Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanına sədaqət, Vətənə və xalqa məhəbbət aşılamaq, hərbi hissələrdə və hərbi təhsil ocaqlarında nizam-intizamın və qayda-qanunun bərqərar olmasına, hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə nail olmaqdır. Eyni zamanda Hərbi Anda və nizamnamələrə sadiq olmaq, komandirlərin bu istiqamətdə əmr və tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək hər bir hərbi qulluqçunun birbaşa vəzifəsidir.

İctimai-siyasi hazırlıq dərslərində əsgərlərə dövlətimizin tarixi öyrədilir, Vətən uğrunda şərəflə xidmət etmək tərbiyə olunur, müstəqil Azərbaycanın ordusunda xidmət etməyin şərəf işi olduğu başa salınır.

Təbii ki, məşğələlərin səmərəliyi ilk növbədə qrup rəhbərlərinin hazırlıq səviyyəsindən, onların hərbi pedaqogikanı bilməsindən, ictimai-siyasi və hərbi proseslərdən baş çıxarmasından, mövzunu şəxsi heyətə öyrədə bilmək bacarığından çox asılıdır. Əslində müsabiqənin keçirilməsində məqsəd həm də qrup rəhbərlərinin pedaqoji ustalıqlarını artırmaq, fərdi hazırlığını yüksəltməkdir.

Baş leytenant Rauf Fərmanlının əsgərlərdən ibarət qrupu ən yaxşılardan hesab edildi. Siyahı üzrə şəxsi heyəti yoxlayan baş leytenant öncə ölkəmizdə və dünyada baş vermiş hadisələr barədə döyüşçülərə qısa məlumat verdi. Bundan sonra yeni məşğələnin mövzusunu şəxsi heyətə elan etdi. Bu dəfə dərs Azərbaycanda mövcud olan dini konfessiyalara və dini bayramlara həsr edilmişdi.



Baş leytenant Fərmanlı ictimai-siyasi hazırlıq dərsində Azərbaycanda yaşayan müxtəlif dini icmalar barədə şəxsi heyətə məlumat verdi, ölkəmizdə dini tolerantlığın üstünlüklərini əsgərlərə aydın dillə başa saldı. Qrup rəhbəri, həmçinin, həmin dini icmaların keçirdiyi dini bayramlar barədə öz düşüncələrini bölüşdü. Dərsi daha yaddaqalan etmək məqsədilə zabit əyani təşviqat vasitəsi kimi Vətənimizdə dini müxtəlifliyi daha bariz və dolğun nəzərə çarpdıran vəsaitlərdən istifadə edirdi. Baş leytenant Fərmanlı dərsin keçirilməsi üçün lazımi, maddi baza hazırlamış, müasir informasiya və kommunikasiya texnologiyasından yararlanmağa çalışmışdı. Şəxsi heyətə mövzunu aydın başa salmaq üçün müvafiq plakatlarla yanaşı, o, televiziya və kompüterlərin köməyindən də yararlandı. Məşğələdə iştirak edən zabit Elşad Əbilov ictimai-siyasi hazırlıq qrupunun fəaliyyətindən razılığını bildirdi.

Eyni zamanda müsəlmanların müqəddəs bayramı olan Ramazan bayramı zamanı Qafqaz müsəlmanlarının dini rəhbəri Allahşükür Paşazadə tərəfindən verilən iftar süfrəsinə dəvət edilmiş Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı məşğələ zamanı səsləndirildi. Dərsin sonunda ictimai-siyasi hazırlıq qrupunun rəhbəri şəxsi heyət tərəfindən mövzunun mənimsənilmə səviyyəsini yoxlamaq məqsədilə əsgərləri sorğu-sual etdi və onların biliyini qiymətləndirərək jurnalda qeydlər apardı.

Gənc zabitin keçdiyi məşğələdə ilk anlardan hiss olunurdu ki, qrup rəhbəri dərsə yetərincə hazırlaşıb və onu canlı bir tərzdə, ünsiyyət qurmaqla döyüşçülərə başa salmağa çalışır. Doğrudan da, baş leytenant Rauf Fərmanlının qrupu ən yaxşı hazırlığa malik qrup kimi birlik səviyyəsində birincilik qazandı. Bu yarışmada ən yaxşı ikinci ictimai-siyasi hazırlıq qrupu leytenant Arif Hacıyevin rəhbəri olduğu qrup seçildi. "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda yarışmada üçüncü nəticəni mühəndis-istehkamçılar bölməsi (qrup rəhbəri baş leytenant Mahmud Mahmudovdur) göstərdi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Rəcəb Tayyib Ərdoğanın prezidentliyi rəsmən elan olundu



Türkiyə Ali Seçki Komissiyası Baş nazir, Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın prezident seçilməsinə dair rəsmi sənədi təsdiqləyib. Komissiyanın sədri Sadi Güven sənədi avqustun 15-də Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçəyə təhvil verib.

S.Güvenin verdiyi məlumata görə, "Prezidentlik şəhadətnaməsi" Rəcəb Tayyib Ərdoğana avqustun 28-də Türkiyə Böyük Millət Məclisində Cəmil Çiçək tərəfindən təqdim olunacaqdır.

### Türkiyə səfirliyinə atəş açan erməni həbs olundu




Türkiyənin Moskvadakı səfirliyinə atəş açan 43 yaşlı erməni Artur Mirzoyan həbs olunub. APA TV-nin məlumatına görə, saxlanan şəxsin Rusiyada fəaliyyət göstərən "Dobrıy les" məhdud məsuliyyətli cəmiyyətin direktoru olduğu aydınlaşıb.

Artur Mirzoyan ov tüfəngi ilə səfirlik binasının qapısına vurulmuş Türkiyə Cümhuriyyətinin dövlət gerbinə iki dəfə atəş açıb. Güllələrin hər ikisi gerbə dəyib. Müşahidə kamerasından hadisəni görən mühafizə xidmətinin əməkdaşları Artur Mirzoyanı səfirliyin qarşısında zərərsizləşdiriblər. Saxlanan erməni hüquq-mühafizə orqanlarına təhvil verilib.

### ABŞ-ın Ferqyuson şəhərində iğtişaşlara görə fövqəladə vəziyyət elan edilib



ABŞ-ın Missuri ştatının Ferqyuson şəhərində 18 yaşlı qaradərili gəncin polis tərəfindən qətlə yetirilməsi səbəbindən baş vermiş kütləvi iğtişaşlara görə şəhərdə fövqəladə vəziyyət və komendant saatı elan edilib. Müvafiq fərman Missuri ştatının qubernatoru Cey Nikson tərəfindən imzalanıb. İnsident Sent Luis şəhərinin ətrafında kütləvi aksiyalara səbəb olub. Məlumata görə, dükanda oğurluq etmiş gənc polisə heç bir müqavimət göstərməyib. Əksinə, ölümündən əvvəl o, əllərini yuxarı qaldıraraq polisdən atəş açmamağı xahiş edib. Buna baxmayaraq, asayiş keşikçisi, hələlik məlum olmayan səbəbdən atəş açaraq gənci qətlə yetirib.

### Türkiyə MPT-76 tüfəngini Bakıda müdafiə sərgisində nümayiş etdirəcək



Türkiyə Milli Piyada Tüfəngi layihəsi çərçivəsində istehsal olunmuş MPT-76 piyada tüfəngini sentyabr ayında Bakıda keçiriləcək ADEX-2014 sərgisində nümayiş etdirəcək.

MPT-76 tüfəngi Türkiyə Silahlı Qüvvələrinin silahlanmasındakı G-3 piyada tüfənglərinin əvəzlənməsi üçün yaradılıb və 200 ədədlik ilk partiyası may ayında Quru Qoşunlarına təhvil verilib.

Çəkisi 4,1 kq olan silah 7.6251 mm çaplı patronlardan istifadə edir. Tüfəngin təsirli atış məsafəsi 600 metrdir.

### Ukrayna ordusu daha bir şəhəri azad etdi




Ukrayna ordusu Yasinovataya şəhərini separataçılardan azad edib.

Bu barədə Ukrayna prezidenti Pyotr Poroşenko "Facebook" səhifəsində yazıb.

Onun sözlərinə görə, bu günlər Ukraynanın taleyi həll olunur: "Yasinovataya şəhərinin strateji əhəmiyyəti çox böyükdür. Ukrayna bayrağı ölkənin hər yerinə sancılacaq".

Qeyd edək ki, Yasinovataya şəhəri Donetskin 12 kilometr şimalında yerləşir.

### Neft şirkətləri Şimali İraqda fəaliyyətlərini dayandırmaq qərarına gəliblər



İraqın şimalında fəaliyyət göstərən yeddi beynəlxalq neft şirkəti Ərbil şəhəri yaxınlığında "İraq-Şam İslam Dövləti" ("İŞİD") adlı terrorçu qrupla Peşmərgə silahlıları arasında davam edən qarşıdurmalar və ABŞ-ın İŞİD-ə endirdiyi aviazərbələr səbəbindən bölgədəki fəaliyyətini dayandırmaq qərarına gəlib. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, Əbu-Dabi Əmirliyinin milli enerji şirkəti "TAQA", həmçinin "Chevron", "Exxon", "Oryx", "Genel Enerji", "Afren" və "Hess Corporation" kimi şirkətlər problemli bölgələrdə istehsalı dayandırdıqlarını və işçiləri azad etməyə başladıqlarını bildiriblər.

### Azərbaycanın dövlət sərhədinin dağlıq ərazilərdə mühafizəsi sistemi üçün



2014-2024-cü illərdə Azərbaycan Respublikasının dövlət sərhədinin dağlıq ərazilərdə mühafizəsi sisteminin inkişafına dair xüsusi plan hazırlanıb. Bunu "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev deyib: " Yaxın gələcəkdə ölkəmizin sərhəd təhlükəsizliyinin fiziki üsulla yox, əməliyyat və texniki yolla təmin olunması istiqamətində mühüm işlər görülür. Aparılan islahatlar sırasında sərhəd qurumlarında şəxsi heyətin tam peşəkar heyətlə komplektləşdirilməsi xüsusi yer tutur ki, bu istiqamətdə də konkret addımlar atılmaqdadır".

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Uşaqlar üçün hərbi vətənpərvərlik düşərgəsi fəaliyyətə başlayıb

## 80 nəfər "gənc heydərçilər" Qusara yay istrahət düşərgəsinə yola düşdü

***Avqustun 18-də səhər saatlarında yay istirahət düşərgəsinə yola salınacaq yeniyetmələr - "gənc heydərçilər" Səbail Rayon İcra Hakimiyyətinin qarşısında toplaşmışdılar. Onlar bir azdan avtobuslarla Qusara - hərbi hissədə təşkil olunan düşərgəyə yola düşəcəkdilər. Valideynlərdə bir narahatlıq, uşaqlarda isə sevinc əhval - ruhiyəsi hiss olunurdu.***





Məlumat üçün bildirim ki, yeniyetmə və gənclərin yay istirahətinin təşkili ilə bağlı Səbail rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyilə birlikdə layihə həyata keçirir. Təhsildə və idmanda fərqlənən xüsusi istedadlı yeniyetmələrin hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə göndərilməsi bu layihədə yer aldı.

Vətənpərvər, yeniyetmə "gənc heydərçilər" yolasalma mərasimində Müdafiə Nazirliyinin məsul nümayəndələri, Səbail rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri və başqaları iştirak edirdilər.

Yolasalma mərasimi hərbi orkestrin ifasında Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başladı.Tədbiri Müdafiə Nazirliyi Mənəvi Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani açdı.

Tədbirdə Səbail Rayon İcra Hakimyyətinin başçısı Asif Əsgərov ölkə başçısı cənab İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən danışdı.

Sonra Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev bu layihənin mənəvi-psixoloji əhəmiyyətini xüsusi vurğulayaraq görülən bütün işlərin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqətində olduğunu nəzərə çatdırdı və uşaqlara xoş istirahət arzuladı.



Hərbi orkestrin marş sədaları altında yeniyetmələr valideynləri ilə görüşdükdən sonra onlar üçün ayrılan avtobuslara əyləşərək Qusar rayonuna yola düşdülər. Yola düşməzdən öncə "gənc heydərçilər" Fəxri xiyabanda ulu öndərimiz Heydər Əliyevin məzarını ziyarət etdilər.

Qusarda onları "N" hərbi hissəsinin məsul zabitləri qarşıladılar. Polkovnik Fazil Ağalarov çıxış edərək yeniyetmələrin nümunəvi istirahətinin təşkil edilməsi üçün hərtərəfli şərait yaradıldığını diqqətə çatdırdı.

Hərbi hissədə xüsusi olaraq ayrılmış kazarmada yeniyetmələrin istirahəti üçün vacib olan şəraitin qurulması Müdafiə Nazirliyi və Səbail rayon İcra hakimiyyəti tərəfindən həyata keçirilir.

Heç şübhəsiz hərbçilərlə yaxından təmasda olmaq, əsgərlərin gündəlik həyatı və hərbi hissə ilə tanışlığı yeniyetmələrin gələcəkdə hərbi xidmətə daha yaxşı hazırlaşmasına, onlarda hərbçi peşəsinə marağın artmasına köməklik göstərəcəkdir.

Belə ki, düşərgənin hərbi-vətənpərvərlik təmayüllü olması səbəbindən uşaqlar üçün xüsusi geyim və forma, lazımi idman ləvazimatları alınıb. Artıq "N" hərbi hissəsində bu məqsədlə tam hazırlıq işləri görülüb.

Yeniyetmələr iki həftə ərzində gündə 4 dəfə yüksək kalorili yemək, təzə meyvə və tərəvəz, süd məhsulları ilə təmin olunacaqlar. İstirahət dövründə onlar üçün bir neçə dəfə təbiət qoynunda naharın təşkili də nəzərdə tutulub. Yeniyetmələri hərbi hissənin döyüş texnikası və silahları ilə tanışlıq da gözləyir.



Düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə idman və çağırışaqədər hazırlıq müəllimləri, eləcə də hərbi hissənin zabitləri, çavuş və əsgərlərindən ibarət qrup məşğul olacaq.



Layihənin Müdafiə Nazirliyi üzrə kuratoru polkovnik-leytenant Kamran Nəsibov yeniyetmələrin təlim-tərbiyəsi ilə bağlı həyata keçirilən işlərdən danışaraq bildirdi ki, ayrılmış saatlarda yeniyetmələrə nəzəri məşğələlər keçiriləcək, salamlaşma, sıra düzülüşü qaydaları, xidmətlərlə bağlı qısa məlumatlar veriləcək.

"Gənc heydərçilər"in Qusar rayonunun görməli yerlərinə, tarixi abidələrinə, "Nabran" istirahət və "Şahdağ" idman - turizm mərkəzlərinə ekskursiyaları və "Quba soyqırımı" abidəsinə ziyarət də nəzərdə tutulub.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Nancinqdə yeniyetmələrin II Yay Olimpiya Oyunlarının açılış mərasimi olub



Çinin Nancinq şəhərində yeniyetmələrin II Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

Açılış mərasimi Çin və BOK bayraqlarının qaldırılması, iştirakçı ölkələrin təqdimatı ilə davam edib. Qədim İpək Yolunu simvolizə edən möhtəşəm şou açılış mərasiminin maraqlı hissəsi olub.

204 ölkədən 3700-dən çox idmançının 28 növdə yarışacağı Nancinq Olimpiya Oyunları avqustun 28-dək davam edəcək. Azərbaycan "Nancinq-2014"də idmanın 7 növü üzrə 19 nəfərlik heyətlə təmsil olunur.

## Yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarında ilk medallar



Çinin Nancinq şəhərində keçirilən yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarında Azərbaycan ilk medallarını qazanıb.

Cüdo yarışlarında ölkəmizi təmsil edən Natiq Qurbanlı (55 kq) və Leyla Əliyeva (44kq) uğurla çıxış edərək yalnız finalda uduzmaqla oyunların gümüş medalına sahib olub.

Taekvando yarışlarında Ceren Özbek (44 kq) də yarışların final mərhələsinə yüksəlib. Onun da finalda bəxti gətirməyib və gümüş medala layiq görülüb.

## Azərbaycan millisi Avropa super finalı yarışlarını üçüncü pillədə başa vurub



İspaniyanın Torredembarra şəhərində təşkil olunmuş çimərlik futbolu üzrə Avropa super finalı yarışlarına yekun vurulub.

AzərTAc xəbər verir ki, Azərbaycan milli komandası sonuncu oyununda Türkiyə yığmasını 5:3 hesabı ilə məğlub edərək bürünc medallara sahib olub.

Amid Nəzərovun dubl etdiyi oyunda hərəyə bir dəfə Zeynal Zeynalov, Sabir Allahquliyev və Orxan Məmmədov fərqləniblər.

## Azərbaycan karateçiləri erməniləri biabırcasına məğlub ediblər



Türkiyənin Ərzurum şəhərində 11-ci beynəlxalq "Palantökən" turnirinin komanda kumite yarışlarında erməni idmançılarla tatamiyə çıxan Azərbaycan karateçiləri rəqibi biabırcasına məğlub ediblər.

Azərbaycan Milli Karate Federasiyasından Trend-ə bildiriblər ki, böyüklərdən ibarət seçmə komandanın üzvləri Pənah Abdullayev və Əli Cəfərov rəqibə heç bir şans vermədən 7:0 hesablı qələbələrlə komandamıza və onu dəstəkləyən böyük auditoriyaya gözəl anlar yaşadıblar.

Görüşdən dərhal sonra pərt vəziyyətə düşən ermənilər yarış zalını tərk ediblər.

## Futbol üzrə Topaz Premyer liqasının ikinci turunda növbəti oyunlar keçirilib

Avqustun 16-da futbol üzrə Topaz Premyer liqasının ikinci turu çərçivəsində növbəti oyunlar keçirilib.

AzərTAc xəbər verir ki, "Qarabağ" və "İnter" komandaları qarşılaşıblar. Tərəflərin səylərinə baxmayaraq görüşdə hesab açılmayıb.

"Neftçi"nin "Bakı" ilə görüşündə isə "Neftçi" rəqibinə 1:0 hesabı ilə qalib gəlib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

*19 avqust 2014-cü il.*

Müdafiə Nazirliyi bildirir ki, bəzi kütləvi informasiya vasitələrində NATO-ya məxsus təyyarələrin Ukraynadakı separatçıları bombalaması məqsədilə yanacaq doldurulması üçün müxtəlif dövlətlərlə yanaşı guya Azərbaycan ərazisindəki aerodromlardan istifadə edilməsi haqqında yayılan və heç bir fakta söykənməyən məlumatların əsası yoxdur və bu kimi informasiyalar təxribat xarakteri daşıyır.

* * *

*19 avqust 2014-cü il.*

Avqustun 19-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində NATO-nun Brunssum şəhərindəki (Niderland Krallığı) Birləşmiş Komandanlığının mobil təlim qrupu tərəfindən "Əldə hazırlanan partlayıcı qurğular"la mübarizə mövzusunda təlimə başlanıb. Müdafiə Nazirliyinin mühəndis xidmətinin bir qrup zabiti üçgünlük təlim kursuna cəlb olunub. Təlimin ilk günü hərbi tərəfdaşlıq və digər mövzuların təqdimatı ilə yadda qalıb.

Keçirilən kursda mühəndis xidmətinə cavabdeh zabitlər hərbi biliklərini təkmilləşdirəcəklər. Təlim zamanı "Əldə hazırlanan partlayıcı qurğuların törətdiyi fəsadlar və bu qurğulara qarşı müdafiə sistemlərinin təhlili" və digər mövzular üzrə seminarlar keçiriləcək.

* * *

*19 avqust 2014-cü il.*

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və Füzuli rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

*Publisistik düşüncələr*

# Qeyrət

Fərarilik torpaqsevərliyin ayağına vurulan qandaldı...

Fərari oğul ata-ana adına üzqaralığı gətirir...

Zaman-zaman belə olub, belə də olacaq...

...1943-cü ildə davadan qaçıb evinə gələn ərini gecəynən baltalayan Güləsər məhkəmədə "El qəhri çəkməyənin aqibəti ölümdü. Beləsiynən ömür çürütməkdənsə dul qalmaq, türmədə çürümək yaxşıdı. Mənə dezertir (fərari - R.F.) arvadı deyilincə, ər qatili deyilsə yaxşıdı".

Əlləri qana bulaşsa da Güləsər ərini el tənəsiylə gələsi mənəvi ölümdən qurtarır. Elin kişiləri türməyə düşən Güləsərin çal-çəpərini sahmana salmamış öz ev-eşiyinin əyər-əsgiyini düzəltməzmiş. İsmayıla rəhmət oxuyan olmayıb. İndi də yoxdu. Güləsərin minbir əziyyətlə böyütdüyü ciyərparasına "Güləsərin oğlu İlham" dedilər, "dezertir" İsmayılın oğlu İlham" demədilər...

Yadıma bir hadisə düşdü. Unudulası hadisə deyil. Çoxlarına (həm də cəmiyyətə!) ibrət dərsidi. Alnımı ovuşdurdum...

Məhkəmədə hakimin "Döyüşdən niyə qaçdın?" sualına eşidəcəyim cavabın marağı ilə vaxt tapanda hərbi tribunala gedirdim. "Səhv (? - R.F.) eləmişəm", "Qorxumdan qaçdım" kimi cavablar eşidirdim. Heç birindən "Qeyrətsizlik elədim" cavabını eşitməmişdim. Bəzisi ağılasığmaz bəhanələr də gətirirdi: "Filankəs dedi ki, gəl qaçaq, düşünmədən ona qoşuldum"...

Hərbi tribunalda fərari əsgərin - şərti olaraq Fərman deyək - məhkəməsi olacaqdı. Nəzərlərimi tribunalın həyətindəki qələbəlikdən çəkə bilmirdim. Samir də ordaydı. Sonra biləcəkdik ki, fərarilik eləyən döyüşçünün əmisi oğludu. Bizi görüncə xəcalətindən "ikiqat oldu". Bu yöndəmsiz görüşü heç arzulamazdı...

Bu məhkəmə prosesi əvvəlkilərə bənzəmirdi...

Taqım komandirinin də, keçmiş döyüşçülərdən birinin də dedikləri düşüncələrimi didik-didik eləmişdi; Fərmanın iç dünyasının qaranlığını aydınlığıyla görürdüm. Hamı da mənim kimi. Fərmanın vəkili udqundu. Kimisə görmək ümidi ilə zala boylandı...

...Kimsə icazə almadan ayağa qalxdı. Cavan qız idi. Ağır addımlarla irəliləyirdi. Kimsəyə baxmadan. Kimsəyə məhəl qoymadan. Güman elədik ki, yaxınlaşıb hakimə yalvaracaq, xahiş eləyəcək. Ağlayacaq da. Hakimin ürəyi yumşalacaqdımı?..

Kimsə iniltili səslə qızı harayladı: "Şəhla!". Şəhla səsə sarı dönmədi. Səs onu yolundan saxlaya bilmədi. İki-üç saniyənin ömrü saatlarca uzanırdı...

Şəhla hakimə tərəf getmədi. Fərmanın yanına çatanda dayandı. Hamının nəzərləri ona dikilmişdi. Çiyninə sürüşmüş yaylığını (örpəyini) əsəbiliklə bürmələdi. Bir anlığa, tək bircə anlığa duruxdu və mühafizəçi əsgərə məhəl qoymadan bürmələdiyi yaylığını (örpəyini) Fərmanın üzünə çırpdı. Davamlı baxışlarla rəngi avazımış fərarini süzdü.

Bir qadının fəryadı zalı üşəndirdi, bir kişi ürəyini tutub yerə çökdü. Qadın Fərmanın anasıydı, kişi - atası. Onlara heç kim təsəlli verməyə ürək eləmədi. Təsəlli olası nə deyəydilər? Üzə yaylıq çırpılması ağır işdi. Yaylığın (örpəyin) bu şəkildə atılması qeyrət məsələsidi. İllər öncə - 30-cu illərdə buna bənzər hadisə olub, onda qan düşüb. Oğlan yaylıq atanı öldürüb, qızın qardaşı isə oğlanı...

Şəhla Fərmanın nişanlısıymış. Sadəcə, hakimin oxuyacağı hökmü eşitmək istəmədi - getdi...

Şəhla Fərmana hakimdən əvvəl cəza verdi. Hakimin verəcəyi cəzadan daha ağır bir cəza...

Söz yerdə qalmır. Şəhlanın verdiyi cəza döyüşlərdə Fərmanlığa meyllilərin neçəsinin ayağına dolaşdı, qoymadı ki, fərariliyə sarı addım atsın...

İllər sonrası Samir deyəcəkdi ki, Fərman türmədən çıxandan sonra kənddə qalmadı. Qala bilmədi. El qınağı, el tənəsi ağırdı. Həm də dözülməzdi. O gedən gedib. Nə öldüsü bəllidi, nə qaldısı. Şəhlanı el-obada kimsə qınamadı. Qınaya bilmədi...

Şəhla ailə qurdu. İndi iki oğul anasıdı. Qeyrəti balalarına "dədə boyu" oldu.

Fərmanın atası bu dərdə dözmədi; üzünə yaylıq (örpək) çırpılan oğulun atasını dərd əritdi, yaşaya bilmədi, anasının sağ canı sayrı düşdü.

Fərmanın qüruru sınmışdı. Fərmanın qürurunu nişanlısı sındırmışdı. Bu kənddə indiyə kimi heç kimin üzünə yaylıq çırpılmamışdı; nişanlısının bu hərəkətinin söz yozumu çox ağır idi: kişi deyilsən, bu yaylığı başına ört. Tay-tuş arasına çıxmağa üzü yoxuydu. Boyu harda görünsə, kinayə biçimli gülüşlə əhatələnərdi. Dili dinc durmayan da olardı...

Fərmanın qeyrətsizliyi fonunda Şəhlanın qeyrəti yağışdan sonra göyqurşağı kimi göründü...

...Fərariliyin son ucu müqayisəyəgəlməz xəcalətdi, el töhmətidi, ürvatsızlıqdı, bir də şirinliyini itirmiş illərdi - harda yaşamasından asılı olmayaraq. Həm də yaşaya bilsə, ürəyi buna dözsə...

İndi Fərmanlar yoxdu,olmayacaq.

İndi kimsə fərariliyə meyyllənməz. Ordumuzun mənəvi-psixoloji hazırlığı da döyüş hazırlığı kimi yüksək səviyyədədir.

Fərarilik olmayacaq, Fərmanlar olmayacaq. Şəhlalar əsgərlərimizin qələbə yoluna gül səpəcək!..

**Rəşid FAXRALI**
**"Azərbaycan Ordusu"**

Gizir Ağayev İlkin Tehran oğluna 2007-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kursant Mehdiyev Elvin Qadir oğluna 2011-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 268
Nüsxə 4570